

# Çox az qalıb

## Abbas Bağırov: "İnşallah, o raketlərin hamısı başlarına yağacaq"

**Oktyabrın 10-dan 11-ə keçən gecə Azərbaycana qarşı növbəti terror aktını törətdilər. Saat 2 radələrində, döyüş bölgəsindən 100 km uzaqda olan, Azərbaycanın ikinci böyük şəhəri Gəncə Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutuldu.**

Düşmənin qəfil hücumu nəticəsində 10 nəfər mülki şəxs həlak olub, 30-dan çox şəxs isə yaralanıb. Bununla yanaşı mülki obyektlərə və yaşayış binalarına ziyan dəyib. Şübhəsiz ki, Gəncə əhalisini yuxudan qəfil oyadan bu dəhşətli hücum tarix boyu şahidi olduğumuz erməni vandalizminə növbəti nümunəsidir. Dağıntılar altından çıxarılan məsum cocuqların fotoları isə "Xocalı" soyqırımında qətl edilən məzlumları xatırladır.

**Həmin dəhşətli dəqiqələrdə Gəncədə olan tanınmış müğənni, əməkdar artist Abbas Bağırov "Sherg.az"a o anlardan danışıb.** Raket zərbəsinin endirildiyi zaman səslərin bütün şəhərə yayıldığını söyləyən sənətçi, mərmi düşən əraziyə yaxın məsafədə yaşadığını da qeyd edib:

"Çox ağır və təsiredici idi. Demək olar, bütün Gəncə o səsləri və ahnaləni eşitdi. Hətta beş-altı kilometrə qədər silkələnməsi hiss olundu. Hadisənin baş verdiyi ərazidə zərər çəkən insanlar, vəfat edənlər var. Ətrafdakı binalara ciddi ziyan dəyib. Bu təxribata əl atanlara düşmən demək olmaz. İnsanın gərək düşməni də düşmən sözünə layiq olsun. Çünki düşmən döyüş meydanında savaşar. Dinc əhaliyə atəş açmaz. Gücləri o qədər tükənib ki, silahsız, evində, sakit yatan insanların üzərinə bomba atmaqla məşğul olurlar. Həmin görüntülərə baxmaq çox çətindir. Amma inanıram ki, cəzalarını da çəkəcəklər. Mənfur əməllərinin bədəlini hələ çox illər, bəlkə də, əsrlərlə boyu ödəyəcəklər".

*Abbas bəy, həmçinin bildirib ki, hazırda Azərbaycan ərazi bütövlüyünü qorumaq uğrunda əzəli torpaqlarında savaşır. Lakin bəzi ölkələr Ermənistanın işğalçı və terrorçu əməllərinə səssiz qalır:*

"Hətta gözləri görə-görə, xəbərləri ola-ola görməzdən gəlirlər. Əlbəttə, onların ədalətsiz addımları cavabsız qalmır. İndi millətimizin bir olmağı hər bir qüvvəyə cavabdır. Əsgərlərimizin qəhrəmancasına torpaqlarımızı qoruması gücümüzə, birliyimizə bariz nümunədir. Hamımız arzu edirik ki, Azərbaycanın ərazi bütövlüyü təmin olunsun və müharibə sona çatsın. Təbii ki, qələbə bizimlədir, bizimlə olacaq. İnşallah yaxın zamanda cənab Prezidentin elanı ilə Şuşa, Laçın, Kəlbəcərin və bütün torpaqlarımızın işğaldan azad olunduğunu eşidək".

**Son olaraq A.Bağırov hazırda gedən siyasi proseslər və ermənilərin uydurma tarixləri haqqında da danışıb:**

"Siyasi arenada elə şeylər var ki, adi adam da müşahidə edərək fikir bildirə bilər. Mən də siyasətlə məşğul olmuram. Amma izləyirəm, görürəm. Məsələn ermənilər dünya ölkələrində aksiyalar təşkil edirlər. Həmin yürüşlərdə qışqırırlar ki, Putin terrorçudur. Amma Rusiya Ermənistana kömək edir. Lakin ruslar da bilmir ki, ermənilərə nə qədər kömək etsələr də, axırda onlar bunu danacaq.

Deyəcəklər ki, siz etməmisiz bunu özümüz bacardıq. Halbuki cənab Prezident İlham Əliyev sonuncu müsahibəsində bildirdi ki, Ermənistanın 2 milyard məbləğində texnikası məhv olub. Həmin hərbi avadanlıqları almaq üçün pulu hardan alır?

Sadəcə təmannasız yardımlar edirlər. Yoxsa ermənilər acından ölən millətdir. Səngərdə əsgərləri belə qalmayıb. İnşallah, o raketlərin hamısı öz başlarına yağacaq. Çox az qalıb".

**Samirə Ərəbova**